

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 FEVRAL 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 36 (8084) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ


# Keçmişdən gələcəyə strateji müttəfiqlik



***A**zərbaycan və Türkiyə arasında münasibətlər qardaşlıq və strateji tərəfdaşlıq zəminində formalaşıb, zaman keçdikcə daha da möhkəmlənərək xalqlarımızın ortaq maraqlarını və gələcək hədəflərini birləşdirən qırılmaz bağa çevrilib. Bu gün rəsmi Bakı və Ankara qlobal miqyasda mühüm strateji təşəbbüslərin öncülləri kimi çıxış edir, siyasi, iqtisadi və təhlükəsizlik sahələrində birgə layihələri uğurla reallaşdırırlar. Müttəfiqlik əlaqələrinin bugünkü zirvəyə çatmasının mühüm amillərindən biri isə hər iki ölkənin liderlərinin qətiyyətli siyasi iradəsidir.*

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Bir millət, iki dövlət" fəlsəfəsini real siyasətin əsas prinsipi kimi qəbul edərək xalqlarımızın daha da yaxınlaşmasına, dövlətlərimizin bütün sahələrdə bir-birini dəstəkləməsinə çalışırlar. Bu baxımdan, Prezident İlham Əliyevin ötən il yenidən Azərbaycan Prezidenti seçildikdən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsi təsadüfi deyil. 2024-cü il 18-19 fevral tarixlərində baş tutan bu səfər Azərbaycan-Türkiyə münasibətlərinin strateji mahiyyətinin, iki ölkə arasında möhkəm təməllər üzərində qurulmuş müttəfiqliyin bariz nümunəsidir. Ölkə başçımızın bu səfəri Türkiyənin ən nüfuzlu qəzetlərinin manşetlərinə çevrildi, televiziya kanallarında geniş işıqlandırıldı.

Prezident İlham Əliyevin Ankaraya rəsmi səfəri Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələnin başlanğıcını qoydu. Səfər çərçivəsində Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə həm təkbətək, həm də geniş tərkibdə görüşləri baş tutdu.

**(davamı 7-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Görüşlərdə regional təhlükəsizlik də daxil olmaqla iqtisadi, hərbi və təhsil kimi bir sıra önəmli məsələlər müzakirə edildi. Fevralın 19-da Azərbaycanın Elm və Təhsil Nazirliyi ilə Türkiyənin Ali Təhsil Şurası (YÖK) arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu imzalandı. Sözügedən sənəd Azərbaycan və Türkiyə arasında elmi və akademik inteqrasiyanın yeni mərhələsi kimi iki ölkənin gənc nəslinin ortaq bilik

# Keçmişdən gələcəyə strateji müttəfiqlik

və təcrübə mübadiləsinə imkan yaradacaq. Memorandumu Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin YÖK sədri Erol Özvar imzaladı.

Eyni zamanda iki ölkə arasında kənd təsərrüfatı və heyvandarlıq sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında Saziş imzalandı. Bu sənəd ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatı sektorunda bilik mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir. Müqaviləni Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkiyənin kənd təsərrüfatı və meşə naziri İbrahim Yumaklı imzaladı.

Gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş isə iki ölkə arasında investisiya mühitini daha əlverişli etmək, iş adamları üçün yeni imkanlar yaratmaq məqsədi daşıyır. Müqaviləyə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkiyənin xəzinə və maliyyə naziri Mehmet Şimşek imza atdı. Daha sonra Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış etdilər. Ölkə başçımız prezident seçkilərindən dərhal sonra ilk xarici səfərinin məhz qardaş ölkəyə olmasını bir daha vurğuladı: "Qeyd etdiyiniz kimi, prezident seçkilərindən sonra mənim ilk rəsmi səfərim qardaş ölkəyədir. Bu, təbiidir, bu, bir ənənədir. Biz əcdadlarımızdan qalan bütün ənənələrə sadiqik. Bu gün Türkiyə-Azərbaycan birliyi təkcə bölgə üçün deyil, Avrasiya üçün önəmli amilə çevrilib. Hər dəfə Türkiyədə olarkən qardaş ölkədə gedən genişmiqyaslı inkişaf prosesini izləyirəm. Buna çox sevinirəm və bir daha görürəm ki, əziz Qardaşımın səyləri nəticəsində qardaş ölkə yeni zirvələri fəth edir".

Qeyd edək ki, Bakı-Ankara dostluğu və qardaşlığı təkcə tarixin mirası deyil, eyni zamanda müasir dövrün ən möhkəm strateji əməkdaşlıq modellərindəndir. Bu münasibətlərin əsası 1991-ci il noyabrın 9-da Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk günlərdən atılıb. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyıb. 1992-ci il yanvarın 14-də iki ölkə arasında diplomatik münasibətlər qurulub və elə həmin ilin avqust ayında Azərbaycanın Türkiyədə səfirliyi fəaliyyətə başlayıb. Zaman keçdikcə bu münasibətlər daha da dərinləşib. 1993-cü ildə Azərbaycanın İstanbulda, 2004-cü ildə isə Qarsda baş konsulluqları açılıb. Türkiyə də Azərbaycanın strateji bölgələrindən olan Gəncə və Naxçıvanda baş konsulluqlar təsis edərək bu qardaşlığın rəsmi müstəvidə daha da möhkəmlənməsinə töhfə verib. Bu gün Azərbaycan və Türkiyə ikitərəfli münasibətlərin nümunəsini ortaya qoymaqla həm də beynəlxalq arenada bir-birinə birmənalı dəstək verən iki müttəfiq kimi çıxış edir. Birgə həyata keçirilən qlobal layihələr bütövlükdə regionun inkişafına xidmət edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi nəhəng enerji layihələri bu əməkdaşlığın real bəhrəsidir. Bu layihələr vasitəsilə Azərbaycan və Türkiyə Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi regionun iqtisadi inkişafına yeni nəfəs verib.

Azərbaycan və Türkiyə arasında münasibətlər artıq ikitərəfli əməkdaşlıq çərçivəsindən çıxaraq Türk dünyasında inteqrasiya və güclənmə prosesinin əsas hərəkətverici qüvvəsinə çevrilib. İki qardaş ölkənin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində birgə fəaliyyəti həmrəyliyin sözdə yox, əməldə olduğunu bir daha sübut edir. Azərbaycan və Türkiyə bu təşkilatlar vasitəsilə öz maraqlarını qorumaqla yanaşı, regionun ümumi inkişafına, sabitliyə və tərəqqiyə mühüm töhfələr verir. Xüsusilə, Türk Dövlətləri Təşkilatında Azərbaycanın və Türkiyənin aktiv rolu, türkdilli ölkələr arasında siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsinə yönəlmiş strategiya Türk birliyinin gələcəyini formalaşdıran əsas amillərdəndir. Prezident İlham Əliyevin sözləri bunu təsdiqləyir: "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda bütün Türk dünyası üçün də mühüm rol oynayır. Biz Türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk".

Türk dünyasının gücləndirilməsi və türkdilli dövlətlərlə münasibətlərin dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Prezident İlham Əliyev ötən il fevralın 14-də keçirilən andiçmə mərasimində Azərbaycanın bu istiqamətdə qətiyyətini bir daha təsdiqlədi: "Bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur". Bu ifadə Azərbaycan tarixinin və mədəniyyətinin bir parçası olduğu türk dünyasını təkcə coğrafi yaxınlıq deyil, həm də ortaq dəyərlər, birgə hədəflər, qarşılıqlı maraqlara əsaslanan güclü əməkdaşlıq çərçivəsində dəyərləndirir.

44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını bir daha nümayiş etdirdi. Müharibənin ilk anlarından Türkiyənin ölkəmizin yanında olması Prezident Rəcəb Tayyib Ərdoğanın açıq və birmənalı şəkildə Azərbaycanın haqq işinə dəstək verməsi münaqişəyə müdaxilə etmək istəyən bütün xarici qüvvələri geri çəkilməyə məcbur etdi. Bu qətiyyətli mövqe Azərbaycan və Türkiyənin strateji müttəfiqliyinin sadəcə siyasi bəyanatlardan ibarət olmadığını, ortaq maraqlara, tarixi bağlılığa və möhkəm iradəyə söykəndiyini bir daha təsdiqlədi. 2020-ci ilin dekabrında Bakıda keçirilən möhtəşəm Zəfər paradında Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan dünya ictimaiyyətinə açıq şəkildə elan etdilər ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır, bu birliyin qarşısında heç bir qüvvə dayana bilməz. Bu tarixi hadisə yalnız hərbi-siyasi əməkdaşlığın gücünü deyil, xalqlarımızın qəlbində kök salmış əsl qardaşlıq hisslərinin sarsılmazlığını nümayiş etdirdi.

2021-ci il iyunun 15-də - Milli Qurtuluş Günündə Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanın mədəniyyət beşiyi Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzaladılar. Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə əlaqələrinin gələcək inkişaf istiqamətlərini müəyyən edən əsas strateji sənəd kimi çıxış edir. Burada təkcə iqtisadi və mədəni əməkdaşlıq deyil, eyni zamanda təhlükəsizlik və müdafiə sahələrində qarşılıqlı yardım prinsipi də təsbit olunub. Bu isə o deməkdir ki, Azərbaycanın təhlükəsizliyi Türkiyənin, Türkiyənin təhlükəsizliyi isə Azərbaycanın milli maraqları çərçivəsində dəyərləndirilir. Bəyannamədə nəzərdə tutulan ən mühüm strateji layihələrdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Bu dəhliz Türkiyə ilə Azərbaycanı birbaşa birləşdirməklə yanaşı, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb bölgələri arasında əlaqəni təmin edəcək. Naxçıvan-Qars dəmir yolunun inşası isə layihənin məntiqi davamı olaraq bütün türk dünyası üçün yeni bir nəqliyyat-kommunikasiya arteriyası yaradacaq.

Azərbaycan və Türkiyə artıq təkcə regional deyil, qlobal miqyasda birlik nümayiş etdirən iki dövlətdir. Bu gün Azərbaycan və Türkiyə bir millətin iki dövləti olaraq daha böyük uğurlar hədəfləyir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**